*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 18 oktyabr 2017-ci il № 78 (2195) Qiyməti 25 qəpik


*18 Oktyabr Dövlət Müstəqilliyi Günüdür*

# Azərbaycan regionda qüdrətli dövlətdir

*Hər bir xalqın, millətin taleyində mühüm yer tutan hadisə azadlığa qovuşmaq və müstəqil dövlətçiliyə sahib olmaqdır. Şübhəsiz, bu yol çox çətin və məsuliyyətli bir yoldur, bu yolda gərək mübarizələrdən keçməyi, canını qurban verməyi bacarasan. Öz azadlığı uğrunda mübarizədə ölüm-itimdən çəkinməyən, son anadək mübarizə aparan millət xoşbəxtdir. Məhz Azərbaycan xalqı da tarix səhnəsində belə mübarizələrdən keçib, azadlığa aparan yolda rastına çıxan mürəkkəb şəraitlərdən çəkinməyib.*

20-ci əsrdə xalqımız iki dəfə müstəqilliyə qovuşub və hər iki tarixi mərhələdə çətin mübarizə yolu keçib. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu ilə ilk dəfə müstəqillik əldə edərək Şərqdə ilk demokratik dövlətçilik təcrübəsini yaratmışıq. Gərgin sınaqlarla üz-üzə qalan millətimiz 70 illik bir dövrdə imperiya əsarətində yaşamağa məcbur olsa da, azadlıq ideyalarından uzaq düşməyib, əksinə, zaman-zaman şair və yazıçılarımızın qadağan olunan əsərlərində azadlıq çağırışı duyulub, ziyalılarımız öz fikirlərini sətiraltı ifadə ediblər.

1991-ci ilin oktyabrında Azərbaycan yenidən tarixi müstəqilliyinə qovuşdu. Amma bu dəfə də xalqımız çox ağır, mürəkkəb şəraitlə üzləşdi. Ermənistan havadarlarından güc alaraq torpaqlarımızın 20 faizini işğal etdi. Bir tərəfdən keçmiş imperiyanın əlaltıları ölkədə xaos yaratmağa çalışırdısa, digər tərəfdən müharibə xalqımızı ağır duruma salmışdı. Dağıdılmış iqtisadiyyat və nizami ordunun olmaması, əslində, müstəqilliyimizi də sual altına almışdı. Belə çətin bir zamanda dövləti idarəetmə təcrübəsi olan liderə ehtiyac yaranmışdı və xalq haqlı olaraq dünya şöhrətli siyasətçi Heydər Əliyevin siyasi hakimiyyətə qayıtmasını tələb etdi.

**Ümummilli lider Heydər ƏLİYEV:**

*Bizim ən böyük vəzifəmiz Azərbaycanda dövlət müstəqilliyini qorumaq, saxlamaq, möhkəmləndirmək, inkişaf etdirmək və onu əbədi etməkdən ibarətdir. Hər bir vətəndaş bunu qiymətləndirərək Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün öz töhfəsini verməlidir.*



Görkəmli dövlət xadimi hələ Sovetlər dönəmində respublikaya rəhbərlik edəndə Azərbaycanın böyük gələcəyi naminə mühüm islahatlara imza atmışdı. Sonrakı dövrdə - müstəqillik illərində bu islahatlar nəticəsini verdi. Ulu Öndər müdrikliyi və uzaqgörənliyi ilə zamanında Azərbaycanın müstəqil dövlət olacağını düşünərək bu addımları atmışdı. 1971-ci ildə Bakıda Heydər Əliyevin təşəbbüsü və tələbi ilə Cəmşid Naxçıvanskinin adını daşıyan indiki Hərbi Liseyin fəaliyyətə başlaması hələ o vaxt gənc nəslin hərbə marağının yüksəlməsinə səbəb oldu və minlərlə yeniyetmə burada oxuyaraq sonradan təhsilini keçmiş ittifaqın tanınmış hərbi məktəblərində davam etdirdi. Bu müstəqilliyimiz naminə ulu öndər Heydər Əliyevin böyük xidmətlərindəndir. Məhz bu mənada doğru deyilib ki, tarixi şəxsiyyətlər yaradır.

Təcrübəli siyasi liderin müstəqillik dönəmində də hakimiyyətə qayıdışı ilə dövlətçiliyimizin hüquqi bazası yarandı, ölkədə hökm sürən xaos və özbaşınalıqlara son qoyuldu. Azərbaycanda, bütün sahələrində olduğu kimi, ordu quruculuğu istiqamətində də düşünülmüş addımlar atıldı. Gənc müstəqil dövləti təcavüzlərdən nizami ordu qoruya bilərdi. Həmin dövrün müasirlərindən biri olaraq ölkədə cərəyan edən hadisələri diqqətlə izləyirdim. Vətənimizin taleyi üçün narahatlıq keçirən hər kəs xilas yolunu Ulu Öndərin siyasi hakimiyyətə qayıdışında görürdü. Və xalqın çağırışına biganə qalmayan dahi rəhbər 1993-cü ildə hakimiyyətə qayıtdı.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi və təşkilatçılığı ilə 1995-ci il noyabrın 12-də ilk milli Konstitusiyamızın qəbul edilməsi müstəqil Azərbaycanın dövlətçilik strategiyasında mühüm mərhələ oldu. Mahiyyət etibarilə insan hüquq və azadlıqlarına həsr edilən Əsas Qanunumuzda xalqın maraqları, milli dəyərlərimiz yetərincə təsbit olunub.

Azərbaycanda ordu quruculuğu siyasəti də müdrik sərkərdənin diqqət mərkəzində olan vacib məsələ idi. Ali Baş Komandanın cəbhə xəttinə ardıcıl səfər etməsi, əsgər və zabitlərlə səmimi görüşləri Silahlı Qüvvələrin şəxsi heyətində böyük ruh yüksəkliyi yaratdı və ordumuz düşmənə güclü müqavimət göstərdi. Horadiz qəsəbəsi də daxil olmaqla Füzuli rayonunun 22 kəndinin işğaldan azad edilməsi müharibədə əsaslı dönüş, cəmiyyətimizdə orduya inam yaratdı, gənclərin vətənpərvərlik ruhunun yüksəlməsinə səbəb oldu. Yüzlərlə, minlərlə köçkün ailəsi doğma yurd yerlərində qurub yaratdıqlarına görə bu gün də Ulu Öndərimizi minnətdarlıqla xatırlayır. 2016-cı ilin aprel zəfəri də əsası Ulu Öndər tərəfindən yaradılan ordu quruculuğu strategiyasının müasir dövrdə uğurlu davamının təcəssümüdür. Bu qələbəmiz bir daha sübut etdi ki, Azərbaycanda dövlətə rəhbərlik təcrübəli siyasi liderə həvalə olunub.

**(Ardı 4-cü səhifədə)**

# Azərbaycan, Gürcüstan və Türkiyə regional layihələrin təhlükəsizliyi ilə bağlı fəal əməkdaşlıq edirlər



*Oktyabrın 16-da Gürcüstana səfərə gələn Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Tbilisi şəhərinin mərkəzindəki Heydər Əliyev adına Parkı ziyarət edib.*

*Nümayəndə heyəti xalqımızın Ümummilli Liderinin abidəsi önünə əklil qoyaraq xatirəsini dərin ehtiramla yad edib.*

Gürcüstanda səfərdə olan Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 16-da bu ölkənin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Vladimer Çaçibaia ilə görüşüb.

Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli, regional və beynəlxalq səviyyədə həyata keçirilən səmərəli əməkdaşlıq təcrübəsini müzakirə edən tərəflər bu münasibətlərin bölgədə təhlükəsizliyin təmin olunmasına zəmin yaratdığını xüsusi qeyd ediblər.

Görüşdə, həmçinin Silahlı Qüvvələrin rəhbər heyətlərinin qarşılıqlı səfərlərinin, o cümlədən hərbi mütəxəssislərin görüşlərinin təşkili və keçirilməsinin iki ölkə arasında əməkdaşlığın inkişafına və yeni fəaliyyət istiqamətlərinin müəyyən edilməsinə köməklik göstərəcəyi bildirilib.

Tərəflər Gürcüstanın da iştirakı ilə üçtərəfli və ikitərəfli formatda birgə təlimlərin keçirilməsinin Silahlı Qüvvələrimizin bölmələri arasında əməliyyat uzlaşmasının əldə olunmasına və regional təhlükəsizliyə öz töhfəsini verəcəyinə əminlik ifadə ediblər.

* * *

Gürcüstanda səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 16-da bu ölkənin Müdafiə naziri Levan İzoria ilə görüşüb.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan tərəflər bu formatda görüşlərin keçirilməsinin ölkələrimizin təhlükəsizliyinə təhdid törədən beynəlxalq terrorizm, aqressiv separatizm və digər təzahürlərlə mübarizədə səylərin birləşdirilməsində əhəmiyyət kəsb etdiyini qeyd ediblər.

Müdafiə nazirləri hərbi sahədə əməkdaşlığın inkişafının ölkələrimiz arasında münasibətlərin daha da dərinləşməsinə, xüsusilə Müdafiə Nazirlikləri arasında qarşılıqlı əlaqələrin genişlənməsinə, eləcə də bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə öz töhfəsini verəcəyinə əminliklərini ifadə ediblər.

Tərəflər Azərbaycan və Gürcüstan ərazisində həyata keçirən mühüm infrastruktur layihələrinin təhlükəsizliyinin təmin olunmasında formalaşmış ikitərəfli tərəfdaşlığın gücləndirilməsinin vacibliyini də xüsusi vurğulayıblar.

Görüşdə ölkələrimiz arasında hərbi, hərbi təhsil, hərbi-texniki sahələrdə əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

* * *



Oktyabrın 17-də Tbilisi şəhərində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikası Baş Qərargah rəisi ordu generalı Hulusi Akar arasında görüş keçirilib.

Müdafiə sahəsində mövcud əməkdaşlığın daim inkişaf etdiyini vurğulayan tərəflər iki ölkə arasında qarşılıqlı etimada əsaslanan hərbi əlaqələrin bölgədə sülhün və sabitliyin, davamlı inkişafın, eləcə də xalqlarımızın rifahının təmin olunması baxımından mühüm rol oynadığını qeyd ediblər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın ədalətli mövqeyinin dəstəkləndiyi qeyd olunan görüşdə terrorizmə və separatizmə qarşı mübarizə aparan ölkələr olaraq hərbi əməkdaşlığın inkişaf etdirilməsi və bu məsələlərdə qarşılıqlı dəstəyin vacib olduğu bir daha vurğulanıb.

Cənubi Qafqazda sabitliyin, o cümlədən regional layihələrin təhlükəsizliyinin təmin edilməsində hər iki ölkənin Silahlı Qüvvələrinin rolunun əhəmiyyətli olduğu bildirilib, ikitərəfli hərbi əlaqələrin möhkəmlənməsi və təcrübə mübadiləsinin genişləndirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Görüşdə ölkələrimiz arasında hərbi, hərbi təhsil, hərbi-texniki sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub, iki ölkə arasında keçirilən hərbi təlimlərə Gürcüstanın da cəlb olunmasının əhəmiyyəti vurğulanıb və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.



* * *

Oktyabrın 17-də Tbilisi şəhərində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikası Baş Qərargahının rəisi ordu generalı Hulusi Akar və Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Vladimer Çaçibaianın iştirakı ilə üçtərəfli formatda görüş keçirilib.

Görüşdə bölgədəki hərbi-siyasi vəziyyət, regional təhlükəsizlik məsələləri ətraflı müzakirə edilib və üçtərəfli hərbi əməkdaşlığın perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb.

Tərəflər beynəlxalq terrorizm və aqressiv separatizmin regiondakı sülhə və sabitliyə, ümumi inkişafa mənfi təsir göstərdiyini vurğulayaraq dövlətlərin təhlükəsizliyinə yönəlmiş təhdidlərə qarşı birgə fəaliyyətin vacibliyini xüsusi qeyd ediblər.

Nümayəndə heyətləri hərbi əməkdaşlığın perspektivləri, üçtərəfli hərbi təlimlərin keçirilməsi və birgə fəaliyyətin bir sıra digər istiqamətlərini də nəzərdən keçiriblər.

Sonda görüşün yekunlarına dair birgə protokol imzalanıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## Azərbaycan və Ermənistan xarici işlər nazirləri və ATƏT-in Minsk Qrupunun həmsədrləri birgə bəyanat veriblər

*Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri və ATƏT-in Minsk Qrupunun həmsədrləri birgə bəyanat veriblər. Bu barədə AZƏRTAC-a Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.*

Bəyanatda deyilir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının prezidenti Serj Sarkisyan Cenevrədə zirvə görüşü keçiriblər. ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov (Rusiya), Stefan Viskonti (Fransa) və Endrü Şoferin (Amerika Birləşmiş Ştatları) himayəsi altında keçirilən görüşdə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan iştirak ediblər. Zirvə görüşünə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik də qatılıb.

Görüş konstruktiv mühitdə keçib. Prezidentlər danışıqlar prosesini intensivləşdirmək üçün tədbirlər görməyə və təmas xətti boyunca gərginliyi azaltmaq üçün əlavə addımlar atmağa razılaşıblar. Həmsədrlər çox uzun fasilədən sonra baş tutan bu birbaşa danışıqlardan razılıq ifadə ediblər. Onlar Dağlıq Qarabağ münaqişəsinin danışıqlar vasitəsilə sülh yolu ilə həlli üçün tərəflərlə işləməyə hazır olmaqda qalırlar. Növbəti addım kimi həmsədrlər xarici işlər nazirləri ilə yaxın gələcəkdə işçi görüş keçirəcəklər.

## BMT-nin baş katibi Azərbaycan və Ermənistan prezidentlərinin Cenevrədə apardıqları danışıqları alqışlayıb

*BMT-nin baş katibi Antoniu Quterreş oktyabrın 16-da Prezident İlham Əliyev və Ermənistan prezidenti Serj Sarkisyanın Cenevrədə keçirdikləri danışıqları alqışlayıb.*

AZƏRTAC xarici KİV-ə istinadla xəbər verir ki, bunu BMT baş katibinin rəsmi nümayəndəsi Stefan Düjarrik bəyan edib. Onun sözlərinə görə, baş katib iki dövlət başçısının danışıqlar prosesinin aktivləşdirilməsi və təmas xəttində gərginliyin azaldılması üçün əlavə addımların atılmasına dair razılığa gəlmələrini dəstəkləyir. Əlavə edib ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçilik səylərini dəstəkləyən Antoniu Quterreş Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə nail olmaq üçün tərəfləri son görüşdə yaranmış müsbət dinamikadan istifadə etməyə çağırır.

Ordu quruculuğu

# Uğurlar davamlı olacaq

*Ermənistanın Azərbaycandan ərazi iddiası elan edilməyən müharibəyə səbəb oldu. Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı belə bir vaxtda qəbul edildi. İlk vaxtlarda yerli özünümüdafiə taborlarının bazasında yaradılan müstəqil ordu elmi əsaslarla qurulmadığına görə ərazilərimizi etibarlı müdafiə etməyə, müharibə aparmağa qadir deyildi. Hərbçi kadrların çatışmazlığı, ünsiyyət, dil amili yaradılan ordunun nizami ordu kimi formalaşmasına imkan vermirdi. Dövlətçilik baxımından səriştəsizlik, hərbi taktika və strategiyanın tələblərinə uyğun gəlməyən komandanlıq üslubu kimi amillər də ordu quruculuğunu ləngidirdi.*





Xalqın tələbi ilə hakimiyyətə qayıdan böyük tarixi şəxsiyyət Heydər Əliyevin idarəçilik dühası ordu quruculuğunda da əsaslı dönüş yaratdı, ordu hissələri vahid komandanlığa tabe etdirildi. Qələbəylə nəticələnən Horadiz əməliyyatından sonra Ermənistan atəşkəs haqqında razılığa gəldi. Bununla da Azərbaycanda ordu quruculuğu istiqamətində əsaslı islahatlar aparılmasına şərait yarandı...

Ulu Öndərin siyasi kursunu ordu quruculuğunda da uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tələb və göstərişləri əsasında mühüm tədbirlər həyata keçirildi, ordu quruculuğu elmi əsaslarla davam etdirildi.

Müdafiə Nazirliyində kadr dəyişikliyi ordu quruculuğunda dönüşün başlanğıcı oldu. Kadr siyasəti az müddətdə mövcud vəziyyətin dəyişməsinə, ordunun döyüş qabiliyyətinin, mənəvi-psixoloji hazırlığının artırılmasına şərait yaratdı.

Son illərdə Silahlı Qüvvələrimizdə həyata keçirilən irimiqyaslı islahatlar Azərbaycanda ordu quruculuğunun yeni mərhələsi oldu. Silahlanmaya mərhələlərlə yeni texnikalar, silahlar daxil edilib ki, bunlar da Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi ilə nəticələnib. Bu dönməz proses uğurla davam etdirilməkdədir. Müdafiə Nazirliyinin rəhbərliyi Ali Baş Komandanın tələb və göstərişləri əsasında ordu quruculuğunu uğurla davam etdirir.

Yüksək döyüş hazırlığına malik ordunun formalaşdırılmasını müxtəlif amillər müəyyənləşdirir. Güclü ordu savadlı, kifayət qədər dərin hərbi biliyə malik kadr deməkdir. Zabit kadrları hazırlığı ordu quruculuğunun mühüm tərkib hissələrindən biridir. Əsgərin döyüş hazırlığı zabitin müasir hərbi bilikləri hansı səviyyədə mənimsəməsindən də funksional şəkildə asılıdır. Bu baxımdan Azərbaycanda xüsusi təyinatlı təhsil müəssisələrinin maddi-texniki bazası daha da genişləndirildi, proqram materialları dünyanın aparıcı dövlətlərinin ordu quruculuğu təcrübəsinə istinadən yenidən işləndi, Hərbi Akademiyanın fəaliyyəti istər məzmun, istərsə də forma baxımından təkmilləşdirildi. Nəzəri biliklər təcrübə ilə tənzimlənir, təkmilləşir. Müdafiə Nazirliyinin rəhbərliyi Simulyasiya Mərkəzinin fəaliyyətinin modernləşdirilməsini təmin etdi və bu, qısa müddətdə kadr hazırlığına mühüm təsir göstərdi.

Silahlı Qüvvələrin Hərbi Akademiyasında adyunkturanın yaradılması ordu quruculuğunun elmi əsaslarla aparılmasına etibarlı zəmin yaratdı. Qabiliyyətli, elmi işə marağı olan zabitlər hərbi xidmətlə bir sırada adyunkturada təhsil alır, bu və ya digər elm sahəsi üzrə ordu quruculuğuna gərəkli istiqamətlərdə tədqiqatlar aparırlar. Elmi nəticələr ordu quruculuğuna tətbiq olunur ki, bu da ordunun daha etibarlı səviyyədə formalaşmasını təmin edir.

Dünyanın aparıcı dövlətlərinin Azərbaycanla müxtəlif sahələr üzrə ikitərəfli əməkdaşlığı ölkəmizin güclü dövlət, son illərdə Ali Baş Komandanın təsdiq etdiyi plana müvafiq olaraq keçirilən irimiqyaslı təlimlər isə onun güclü orduya malik olduğunun təsdiqidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" - kəlamı məhz bu inamla bağlıdır.

Son illərdə silahlanmaya yeni texnikalar və silahlar daxil edildiyindən hərbi təhsil ocaqlarında, əsasən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində proqram materialları bir daha yeniləndi. Bununla da zabit kadrları hazırlığı məzmun etibarilə genişləndi - gənc zabitlərin hərbi texnikaların və silahların istismar xüsusiyyətlərini mənimsəməsi təmin edildi. Silahlanmaya daxil edilən yeni texnikalardan və silahlardan istifadə hərbi hissələrdə zabitlərə də öyrədildi. Nəticə etibarilə ordunun gücü artırıldı. Bütün bunlar - ordunun yeni texnikalarla və silahlarla təchizi, şəxsi heyətin onların istismar xüsusiyyətlərini mükəmməl mənimsəməsi Ali Baş Komandanın tələb və göstərişləri əsasında həyata keçirilən islahatların nəticəsidir.

Son illərdə dünyanın iri dövlətləri ilə hərbi əməkdaşlıq da genişlənməkdədir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müxtəlif dövlətlərin Müdafiə nazirləri, Baş Qərargah rəisləri ilə görüşləri bu əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət etməklə, həm də Azərbaycana ehtiramın təsdiqidir.

Dünyanın hərbi analitikləri də təsdiqləyir ki, Azərbaycan Ordusu yüksək döyüş qabiliyyətinə malikdir, Cənubi Qafqazda ən güclü ordudur. 2016-cı ilin aprel döyüşləri təsdiqlədi ki, bu ordu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Bu ordu Ali Baş Komandanın "Azərbaycanda ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəyik" - inamını gerçəkləşdirəcəkdir. Bu döyüşlər onu da təsdiqlədi ki, Azərbaycanda ordu xalqın dayağıdır, ordu ilə xalqın birliyi milli-xəlqi ruhun dönməzliyinin, yenilməzliyinin simvoludur.

Aprel döyüşlərindən sonra Ali Baş Komandanın, Müdafiə nazirinin hospitallarda yaralı hərbi qulluqçularla görüşləri bir həqiqətin təsdiqi idi: hər bir hərbi qulluqçu dövlətin yüksək qayğısı ilə əhatələnir. Bu görüşlər hərbi qulluqçuların hərbi xidmətə münasibətinin, həm vəzifə, həm də vətəndaşlıq borcunun hansı səviyyədə yerinə yetirilməsinin yönümünü müəyyənləşdirdi.

Son dörd ildə yeni hərbi hissələr inşa edilib, şəxsi heyət üçün hər cür şərait yaradılıb. NATO standartlarına müvafiq hərbi hissələrdə xidmət şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə də təsir göstərir. Nəyi qoruduğunu bilən, döyüş hazırlığını artıran əsgər bu qayğını hərbi xidmətinin atributu bilir.

Azərbaycan əsgəri yüksək mənəvi-psixoloji hazırlığa malikdir. Onların bu hazırlığı Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana müvafiq olaraq müəyyən tədbirlərlə genuşləndirilir, artırılır. Son illərdə Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin xətti ilə keçirilən vətənpərvərlik tədbirlərini bir amal birləşdirir: Vətən, Vətən sevgisi, Vətənə sədaqət. Hərbçinin Vətənə sədaqəti Hərbi Nizamnamələrin tələblərinə müvafiq xidmətdir. İnamla deyə bilərik ki, Azərbaycan əsgəri Vətənini dərin məhəbbətlə sevir, Ali Baş Komandanın, Müdafiə nazirinin tələb və göstərişlərini vaxtında və sözsüz yerinə yetirir. Bunu Ali Baş Komadanın, Müdafiə nazirinin cəbhə bölgələrinə səfərlərində əsgərlərlə söhbətləri də təsdiqləyir, atəşkəs pozulanda, Ermənistan silahlı birləşmələri təmas xəttində müxtəlif səviyyədə təxribatlar törətməyə cəhd göstərəndə onlara verilən qətiyyətli cavablar da.

Prezident İlham Əliyev bildirib ki, ordu quruculuğu Azərbaycan üçün prioritetdir. Müdafiə Nazirliyi bu tezisi fəaliyyətinin başlıca qayəsi bilir və ordu quruculuğu istiqamətində istər dünya təcrübəsinə, istərsə də dövlətçilik ənənələrimizə istinadən yeni forma və metodların tətbiqinə gərəkli şərait yaradır.

Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində gərgin səyləri torpaqlarımızın sülh yolu ilə işğaldan azad edilməsinə xidmət edir. Sülh danışıqları baş tutmasa, Azərbaycan Ordusu öz tarixi vəzifəsini yerinə yetirəcək, torpaqlarımızı işğaldan döyüşlə azad edəcəkdir. Ordumuz buna qadirdir. Ordu quruculuğu Azərbaycan üçün, bu missiya ordu üçün prioritetdir.

"Açıq qapı" günləri cəmiyyət-ordu münasibətlərinin əhatəliyi baxımından dəyərləndirilməlidir. Mahiyyəti etibarilə bu tədbir də ordu quruculuğunun tərkib hissəsi kimi əsgərlərin mənəvi-psixoloji hazırlığında mühüm rol oynayır.

Azərbaycan Ordusu Azərbaycanın dövlətçilik qarantıdır. Son illərdə həyata keçirilən islahatlar öz təsirini göstərdi. İrimiqyaslı təlimlər təsdiqlədi ki, Azərbaycan Ordusu dünyanın aparıcı dövlətlərinin orduları ilə müqayisə ediləcək dərəcədə nizami ordu kimi formalaşıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Baş Assambleyasının 72-ci sessiyasında çıxışı Silahlı Qüvvələrin şəxsi heyətinin qələbə əzmini yüksəltdi. Hər zabit, hər əsgər Müdafiə naziri general-polkovnik Zakir Həsənovun dediyi bir fikri hərbi xidmətinin qayəsi bilir: "Ali Baş Komandanın BMT-də səsləndirdiyi fikirlər ordumuz üçün əmrdir".



Bakıda bu yaxınlarda keçirilən "Dəniz Kuboku-2017" yarışları Azərbaycanın Hərbi Dəniz Qüvvələrinin, "TurAz-2017" təlimləri isə Azərbaycanın Hərbi Hava Qüvvələrinin döyüş hazırlığının təsdiqi oldu. Şübhəsiz ki, bu tədbirlərdə Rusiya Federasiyası Müdafiə nazirinin müavininin, Türkiyənin Müdafiə nazirinin iştirakı Azərbaycan Ordusuna ehtiramın təsdiqidir.

Türk şairi Orxan Şaiq Gökyayın bir şeirini xatırlayıram: "Bu Vətan kimin?". Bu Vətən bizimdi, bu ordu bizimdi, ulu öndər Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamının işığında Vətən üçün xidmət edirik, bu orduda xidmət edirik...

**General-mayor**
**Rasim ƏLİYEV,**
**Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi**

# Azərbaycan regionda qüdrətli dövlətdir

(Əvvəli 1-ci səhifədə)

Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin 2003-cü ildə siyasi hakimiyyətə gəlişi müstəqilliyimizin möhkəmləndirilməsində yeni bir mərhələ oldu. "Mən hər bir vətəndaşın Prezidentiyəm", - deyən dövlət başçısının siyasi kursunda xalqın maddi rifahının daha da yaxşılaşdırılması və ölkənin hərbi qüdrətinin formalaşdırılması məqsədilə sürətli iqtisadi inkişaf strategiyası əsas yer tutur. Məhz iqtisadi tərəqqi nəticəsində Azərbaycanda çox qısa zaman kəsiyində mühüm sosial layihələr həyata keçirildi və ölkəmiz regoinda qüdrətli dövlətə çevrildi.



İşğalda olan ərazilərimizin düşməndən azad edilməsini qarşıya prioritet vəzifə qoyan Prezident İlham Əliyev ordu quruculuğunun daha da inkişaf etdirilməsini dövlətin ən vacib vəzifələrindən hesab edir və bu istiqamətdə məqsədli islahatlar həyata keçirilir. Həm ordunun maddi-texniki təminatının yaxşılaşdırılması, həm də hərbi qulluqçulara göstərilən böyük qayğı qısa vaxtda öz bəhrəsini verdi: Azərbaycan Ordusu regionda əsas güc sahibi oldu. Aprel döyüşlərindən sonra nəinki beynəlxalq ekspertlər, habelə işğalçı dövlətin analitik qrupları da ölkəmizin hərbi qüdrətini etiraf etməyə məcbur oldular.

Ali Baş Komandan İlham Əliyevin orduda şəxsi heyətin döyüş ruhunun yüksəldilməsi məqsədi ilə hərbi hissələrdə, ön xətdə Vətənimizin müdafiəsində dayanan əsgər və zabitlərlə görüşləri hərbi qulluqçulara qələbə əzmi aşılayaraq onları döyüş tapşırıqlarının yerinə yetirilməsinə ruhlandırır.



2014-cü ilin avqustunda Ağdam bölgəsində erməni silahlı bölmələrinin atəşkəs dövründən bəri ilk güclü təxribatı baş verəndən sonra Prezident həmin rayona səfər etdi və səngərdə qalib döyüşçülərimizə dövlətin yüksək mükafatlarını şəxsən təqdim etdi. Həmin görüşdə zabitlərimizdən biri Ali Baş Komandana qətiyyətlə söz verdi ki, düşmənə öz gücünü sübut etməyə hər an hazırdır. Həmin zabit keçən ilin aprelində düşmənin hərbi təxribatının qətiyyətlə dəf edilməsində fərqlənən şəhid mayorumuz Samid İmanov idi. Prezidentimiz tərəfindən ona ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adı verildi. Azərbaycan Ordusunun əsgər və zabitlərinin şücaəti hesabına cəmi bir neçə gün ərzində düşmənə sarsıdıcı zərbə endirildi və 2 min hektardan artıq ərazi işğalçılardan təmizləndi. Lələtəpə yüksəkliyinin erməni silahlı birləşmələrinin nəzarətindən çıxması nəticəsində Cəbrayıl rayonuna məxsus Cocuq Mərcanlı kəndində insanların yaşayışı üçün təhlükəsiz şərait yarandı. Bu gün həmin kənd doğma sakinlərini öz ağuşuna alıb, onlar əmin-arxayın öz ata-baba evlərində yaşayırlar.

Bu il "Bilik günü"ndə Azərbaycanın bütün məktəblərində ilk dərs saatı Cocuq Mərcanlıya həsr edildi, məktəblilərə həmin kənd haqqında ətraflı məlumat verilərək Azərbaycan Ordusunun aprel döyüşlərindən bilgilər aşılandı. Məktəbli vətəndaşlarımıza da bir həqiqət aydın oldu ki, Cocuq Mərcanlıda yaşayışın bərpa edilməsi ilə doğma torpaqlarımıza böyük qayıdış başlanır. Bəli, dövlət rəhbərimizin qətiyyətli siyasi kursu, xalqın böyük inamı və ordumuzun hərbi gücü hesabına torpaqlarımız işğaldan azad ediləcək, üçrəngli dövlət bayrağımız Azərbaycanın əbədi müstəqilliyinin rəmzi olaraq bütün bölgələrimizdə qürurla dalğalanacaqdır.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Hazırlıqlı əsgər ordunun gücüdür

*Cəbhə xəttində yerləşən "N" hərbi hissəsində bölmələrin birində müasir avadanlıqlarla təmin olunmuş, yüksək tərtibatla hazırlanmış sinif otağında Azərbaycan Silahlı Qüvvələrinin inkişaf mərhələlərini, ulu öndər Heydər Əliyevin və Ali Baş Komandan İlham Əliyevin əsgərlərlə görüşlərini, Ermənistanın Azərbaycana təcavüzünün nəticələrini, Hərbi Andı və Dövlət himnini əks etdirən maraqlı eksponatlar yerləşib. Bunların hamısı əsgərlərin mənəvi-psixoloji hazırlığının artırılmasında, vətənpərvərlik hissinin, döyüş ruhunun yüksəldilməsində mühüm rol oynayır.*




İctimai-siyasi hazırlıq dərsini keçən kapitan Nizami Qəhrəmanov şəxsi heyətə ictimai-siyasi hazırlıq dərslərinin vaxtlı-vaxtında keçirildiyini deyir. "Şəxsi heyətin yüksək döyüş hazırlığı, milli-mənəvi dəyərlərə sədaqət, möhkəm nizam-intizam, qorxmazlıq, düşmənə nifrət, komandirlərinə inam kimi müsbət keyfiyyətlərə yiyələnməsində ictimai-siyasi hazırlığın önəmi böyükdür".

Öyrənirəm ki, zabit aprel döyüşləri zamanı şücaət göstərib. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunudur. O, ictimai-siyasi hazırlıq dərslərinin komandanlıq tərəfindən təsdiq edilmiş mövzular əsasında təşkil olunduğunu deyir.

- Bugünkü dərsimiz "Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin nümunəvi aparılması ordunun yüksək döyüş hazırlığının rəhnidir" mövzusudur. Dərs zamanı əsgərlərə döyüş növbəsində möhkəm intizamın və yüksək sayıqlığın əhəmiyyətini çatdırıram. Nizamnamələrin əsas müddəalarını izah edir, vəzifə borclarını dəqiq və qüsursuz öyrənmələrini bildirirəm. Həmçinin, əsgərlərə "Azərbaycan Ordusu" qəzetində dərc olunan ön xətdən reportajları, nümunəvi xidmət edən əsgərlərdən bəhs edən yazıları oxuyur, döyüş növbətçiliyi aparmağın, Vətən keşiyində dayanmağın məsuliyyətli və şərəfli vəzifə olduğunu xatırladıram.

Hərbi hissələrdə günün nizam qaydalarına uyğun olaraq ordumuzun yaranmasından, inkişafından, tariximizdən, hərbi nizamnamələrdən, vətənpərvərlikdən, qəhrəmanlıq nümunələrindən və s. mövzulardan bəhs edən ictimai-siyasi hazırlıq dərsləri əsgərlərin həm döyüş ruhuna, həm də mənəvi-psixoloji hazırlığına müsbət təsir edir. Gəncləri mənəvi dəyərlərə sədaqətli, Vətənə məhəbbət və düşmənə nifrət ruhunda qorxmaz və cəsur əsgərlər kimi formalaşdırır.

Əsgərlər komandirlərinin suallarına əhatəli cavab verirlər. Qarovul xidməti ilə bağlı sualı əsgər Şəhadət Əsgərov cavablandırır. Hərbi xidmətə Cəlilabad rayonundan çağırılan Şəhadət qarovul xidməti zamanı hərbi hissənin döyüş bayrağını, mühüm hərbi obyektlərini, silah anbarlarını mühafizə və müdafiə etdiklərini deyərək saatdarın vəzifə borclarından danışır.

- Hərbi xidmət məni qorxmaz əsgər kimi formalaşdırıb. Peşəkar komandirlərimizdən döyüş hazırlığı, silahlar haqqında biliklər öyrənirəm. Həmçinin, ictimai-siyasi hazırlıq dərsləri hərbi biliklərimizi, dünyagörüşümüzü artırır. Heç bir çətinlik çəkmədən xidmət aparıram. Hərbi hissədə yaradılan şəraitdən tam razıyam. Asudə vaxtlarımızda televizora baxır, qəzet və jurnallar oxuyur, vaxtımızı səmərəli keçiririk.

Hərbi xidmətə Şamaxı rayonundan çağırılan əsgər Elvin Cəfərov bölük növbətçisinin vəzifə borclarını tam şəkildə danışır.

- Mən hər dəfə növbəyə getməzdən əvvəl vəzifə borclarımı təkrarlayıram. Növbədə olarkən üzərimə düşən məsuliyyəti yaxşı dərk edir, vəzifələrimin öhdəsindən layiqincə gəlməyə çalışıram. Asudə vaxtlarımı da, əsasən, sinif otağında keçirirəm. "Azərbaycan Ordusu" qəzetində dərc olunan məqalələri, "Hərbi Bilik" jurnalından silah və texnikalar, döyüş maşınları və s. haqqında məlumatları oxumağı sevirəm.

Digər əsgərlər də mövzu barəsində sualları düzgün cavablandırırlar. Şübhəsiz ki, gənc əsgərlərin mənəvi-psixoloji keyfiyyətlərinin artırılmasında ictimai-siyasi hazırlıq dərsləri də mühüm yer tutur.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

*Döyüş hazırlığı*

# "Bütün tapşırıqları yerinə yetirəcəyik"

*Müasir dövrdə döyüş tapşırıqlarının dəqiq və vaxtında yerinə yetirilməsi hər bir kəsdən yüksək nəzəri-hərbi biliklə yanaşı, fiziki-psixoloji hazırlıq da tələb edir. Döyüşdə uğur qazanmaq üçün müasir silahlara malik olmaqla yanaşı, bu silahlardan istifadə qaydalarını mükəmməl öyrənmək vacib şərtdir.*

Hücuma hazırlıq zamanı toplardan açılan sərrast atəş döyüşün taleyini həll edir. Təsadüfi deyil ki, hələ orta əsrlərdən müharibələrdə düşmənə qarşı savaşda toplardan geniş istifadə edilib. Artilleriya imkanlarına malik ordular məğlubedilməzliyi ilə daim seçilib.

Azərbaycan Ordusunun artilleriya bölmələri bu gün tarixi təməl üzərində yeni uğurlu nəticələr əldə etməyə, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırlar. Tarixi torpaqlarımızın işğalçılardan təmizlənməsində artilleriya qüvvələrinin üzərinə böyük məsuliyyət düşür. Onlar digər qoşun növlərinin səmərəli hücum strategiyasını təmin etməli, dəqiq koordinatlar əsasında düşmənin istehkam qurğularını, sığınacaqları, eləcə də digər strateji hərbi obyektləri məhv etməlidirlər.

Ön xətdə ezamiyyətim zamanı "N" hərbi hissəsinin artilleriya bölməsinin gündəlik fəaliyyətindən yazı hazırlamaq qərarına gəldim. Havanın dumanlı, çiskinli olmasına baxmayaraq şəxsi heyət döyüş növbətçiliyini ikiqat məsuliyyətlə aparırdı. Bölmənin zabiti kapitan Sübhi Mürsəliyevlə görüşüb, söhbət edirk. Uzun müddət ön xətdə xidmət edən zabit qeyd edir ki, müharibədə artilleriyanın rolu böyükdür: "Tələblərə görə artilleriya qüvvələri - toplar cəbhə xəttindən bir qədər arxada yerləşdirilir. Hərbi əməliyyatların artilleriya dəstəyi ilə uğurla başa çatdırılması qələbəyə hesablanır. Bölməmizin əsgər-zabit heyətinin həm mənəvi-psixoloji durumu, həm də döyüş təcrübəsi yüksək səviyyədədir. Zabitlər əsgərlərə toplardan istifadənin sirlərini öyrədir, onlara lazımi təlimatlar, əmrlər verir, təhlükəsizlik qaydalarını izah edirlər. Peşəkar top heyəti düşmənin dayaq nöqtələri barədə məlumatlı olduğuna görə, döyüş əmri verilən anda həmin nöqtələr birinci olaraq məhv edilir. Ermənilərin yaratdıqları istehkam qurğularının dağıdılmasında topçularımız öz bacarıq və peşəkarlıqlarını nümayiş etdirməyə tam qadirdilər".



Yaxınlıqda məşq edən gənc topçulara yaxınlaşıb onlarla söhbət edirik. Çavuş Azər Zamanov ön cəbhədə xidmət etməsindən qürur hissi keçirdiyini vurğulamaqla yanaşı, tabeliyindəki topçuların döyüşə tam hazır olduqlarını bildirir: "Bizim əsas vəzifəmiz hərbi əməliyyatların aparılması zamanı piyada qüvvələrinin atəş dəstəyi ilə təmin etməkdir. Piyada qüvvələrinə yardım etmək üçün düşmənin vacib hədəflərini sıradan çıxarmalıyıq. Minaatan komandiri kimi artilleriyanın sirlərini şəxsi heyətə öyrədir, onların qələbə əzmini artırmağa çalışıram. Təlim və dərslər bilavasitə atəş mövqeyində aparılır. Məlumdur ki, top genişmiqyaslı döyüş əməliyyatlarının taleyini müəyyən edən bir silahdır. Buna görə də əsgərlərimiz dəqiq koordinatlar əsasında topla zərbə endirmək qabiliyyətinə malikdirlər".

Göyçay rayonundan həqiqi hərbi xidmətə çağırılmış əsgər Əziz Yusifov qısa müddətdə bacarıqlı topçu kimi formalaşıb. Üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələn əsgər artilleriya sahəsində yetərli bilgilərə malikdir: "Əsas vəzifəm batareyanın baş zabitindən aldığım tapşırıqları top heyətinə çatdırmaqdır. Hər birimiz topu vaxtında döyüşə hazırlamaq, lazımi istiqamətlərə atəş açaraq verilmiş tapşırıqları yerinə yetirmək əzmindəyik".

Digər həmsöhbətim isə Cəlilabad rayonundan hərbi xidmətə çağırılan, artıq 15 aydır xidmətdə olan əsgər Alxas Musayevdir. Alxas deyir ki, topçu olmaq böyük məsuliyyət tələb edir: "Artilleriya döyüşün gedişinə əsas təsir göstərən hərbi vasitədir. Burada olduğum müddətdə müxtəlif artilleriya qurğularının taktiki-texniki xüsusiyyətlərinə yiyələnmişəm. Müharibə başlayarsa, sözsüz ki, əsas yük bizim üzərimizə düşəcək. Sərrast atəşlərimizlə düşməni məhv edəcəyimizə əminik".

Əsgərlərlə səmimi söhbətdən belə nəticəyə gəlirəm ki, bütün qoşun növləri kimi artilleriyaçılarımız da düşməni istənilən vaxt məhv etməyə qadirdilər. Azərbaycan əsgəri heç vaxt torpaqlarımızın düşmən tapdağında qalması ilə barışmayacaq. Cəsur, qorxmaz, vətənpərvər döyüşçülərimiz tezliklə düşməni məhv edib, səmaları göy qurşağıtək bəzəyən, Bayraqtəpədə, Lələtəpədə dalğalanan bayrağımızı digər tarixi torpaqlarımızda da dalğalandıracaqlar.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

*Nümunəvi xidmət*

# "Mən də qalib əsgər olacam!"

*İnsanlar iki cür olur: Tanrı tərəfindən ona bəxş edilən ömrü rəzil və qorxaq kimi yaşayanlar; mərd, qorxmaz, xalqını və Vətənini böyük məhəbbətlə sevənlər. Birincilər həyatda heç vaxt yaxşı ad qoya bilmirlər. İkincilər isə, hər zaman zirvəyə doğru ucalırlar. Həyatda elə insanlar da vardır ki, istər uşaqlıq illərində, istər məktəb illərində, istər tələbəlik illərində, istər əsgərlik illərində, istərsə də ömrünün ahıl çağlarında bütün keçirdiyi günləri mənalı yaşamağı özlərinin həyat amalına çevirməyi bacarıblar.*



Belələrindən biri 1989-cu il aprelin 21-də Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olan, həyatın mənasını dərindən dərk edən, öz xidməti ilə fərqlənən və buna görə də Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən bu günlərdə qiymətli hədiyyə alan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Ramil Allahyarovdu.

Çavuş söhbət zamanı bildirdi ki, nazirdən qiymətli hədiyyə almaq bir hərbi qulluqçu kimi böyük arzularından birinə çatıb: "Bütün şəxsi heyətin, eləcə də hərbi hissəmizin rəhbərliyinin qarşısında bu sevinci yaşamağımla, Müdafiə nazirindən şəxsən qiymətli hədiyyə almağımla, bir hərbi qulluqçu olaraq, top komandiri vəzifəsini daşımağımla qürur duydum. Yaşadığım könül xoşluğunu, keçirdiyim ruh yüksəkliyini bütün silahdaşlarıma da arzulayıram. Elə bilirəm ki, qazandığım qiymətli hədiyyə 7 illik zəhmətimin nəticəsidir, - çavuş deyir.

Deməli, uğur əldə etməyin sirri öz peşənə dərindən yiyələnməkdə və hər addımda məsuliyyətli olmaqdadır."

Atalar yaxşı deyib: niyyətin hara, mənzilin ora. Vətənə xidmət hər bir kəsin borcudur. Çavuş Ramil Allahyarov da bu borcun məsuliyyətini dərindən başa düşərək tabeliyindəkilərin də bir hərbçi kimi formalaşmasında əlindən gələni əsirgəmir. Şəxsi heyətə hərbi texnikanın sirlərini öyrətməyi, vətənpərvərlik hissini aşılamağı özünə borc bilir. İstəyi odur ki, onlar da Vətənə layiq olsunlar, Vətəni qorusunlar.

Torpaqlarımızın işğalda olduğu bir vaxtda bilikli və cəsur hərbçilərimizə daha çox ehtiyac duyulduğunu vurğuluyan həmsöhbətim dedi ki, onların hesabına torpaqlarımızı işğaldan azad edəcəyik: "Havası, suyu, təbiəti ilə hər kəsin zövqünü oxşayan, cənnət məkan olan Qarabağımızın düşmən tapdağında olması üréyimizi dağlayan yaradır. Qədim əzəli torpaqlarımız həsrətlə bizi gözləyir. Tezliklə qalib əsgər olmaq mənim də arzumdur."

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## "Buk-MB" zenit-raket komplekslərindən döyüş atışları icra edilib

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişinə əsasən, Hava Hücumundan Müdafiə Qoşunlarının "Buk-MB" zenit-raket komplekslərinin döyüşə hazırlıq vəziyyəti yoxlanılıb.

Tapşırıqların yerinə yetirilməsi zamanı çətin radioelektron mənə şəraitində şərti düşmənin yüksəksürətli, kiçik ölçülü hava hədəfləri aşkarlanaraq izlənməyə götürülüb və praktiki raket atışları ilə məhv edilib.

Qarşıya qoyulan vəzifə və tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib, şəxsi heyətin döyüş hazırlığı, bacarığı və qarşılıqlı fəaliyyəti Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***17 oktyabr 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 105 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Vazaşen kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Hərbi təhsil*

# Peşəkar zabit hazırlığı ordu quruculuğunda mühüm amillərdəndir

Müsahibimiz Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəisi general-mayor Füzuli SALAHOVDUR

**- Cənab general, müstəqil dövlətin atributlarından biri olan güclü və müasir tələblərə cavab verə biləcək Silahlı Qüvvələrin yaradılmasında hərbi təhsil sisteminin də müstəsna əhəmiyyəti var. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi Silahlı Qüvvələrimizi zabit kadrları ilə komplektləşdirən əsas xüsusi təyinatlı təhsil müəssisəsidir. Onun fəaliyyəti ilə bağlı məlumat verməyinizi xahiş edirəm.**

- Silahlı Qüvvələrin zabit kadrları ilə komplektləşdirilməsi ordunun malik olduğu gücün artırılması deməkdir. Savadlı zabitin tabeçiliyində xidmət edən əsgər də hərbi bilikləri mənimsəyir, bu və ya digər döyüş texnikasının, atıcı silahın istismar xüsusiyyətlərini mükəmməl öyrənir. Ali Baş Komandanın təsdiq etdiyi plana müvafiq keçirilən irimiqyaslı təlimlər təsdiqləyir ki, Azərbaycan Ordusu istənilən döyüş əmrini yerinə yetirməyə hazırdır. Ordunun döyüş hazırlığının artırılmasında Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin də xidmətləri var.

Kursantların mənimsədiyi nəzəri biliklər praktiki olaraq təlim mərkəzlərində həyata keçirilir. Hər bir ixtisas üzrə praktiki tapşırıqlar yerinə yetirilir ki, bunlar da nəzəriyyənin təcrübə ilə tamamlanmasını təmin edir. Ümumiyyətlə, hər bir ixtisas cəbhə şəraitinə uyğun praktiki vərdişlər hesabına möhkəmlənir.

Silahlanmaya daxil edilən yeni texnikalar, uçuş aparatları, mühəndis qurğuları, kəşfiyyat aparatları və s. kursantlara əhatəli öyrədilir. Gələcəyin zabitinə daha əhatəli hərbi biliklər aşılanır.

Fəxr edirik ki, məzunlarımız xarici dövlətlərdə də Azərbaycanı layiqincə təmsil edirlər.

Kursantların mənəvi-psixoloji hazırlığını yüksəltmək üçün müxtəlif mövzularda tədbirlər keçirilir. Bu tədbirlərin böyük əhəmiyyəti vardır. Son illərdə Kursant Elmi Cəmiyyətinin fəaliyyəti də genişlənib. Kursantlarımız respublika miqyaslı konfranslarda uğurla çıxış edirlər.

**- Ordumuz aprel döyüşlərində böyük qələbə qazandı...**

- Doğrudan da, bu döyüşlər ordumuzun gücünü, qüdrətini təsdiqlədi. Ermənistan da, onun havadarları da gördülər ki, Azərbaycan Ordusu torpaqlarını işğaldan azad etməyə qadirdir. Sülh danışıqları baş tutmasa, Ali Baş Komandanın əmri ilə ordumuz işğal olunmuş ərazilərimizi döyüşlə azad edəcək. Buna kifayət qədər gücümüz var. Azərbaycan əsgəri qələbə əzmindədir.

O döyüşlərdə qəhrəmanlıqla vuruşan, şəhid olan zabitlərin əksəriyyəti məktəbimizin məzunudur. Bu fakt da təsdiqləyir ki, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi yüksək hərbi biliyə və geniş dünyaduyumuna malik vətənpərvər zabitlər hazırlayır.

Son illər Silahlı Qüvvələrimizdə həyata keçirilən irimiqyaslı islahatlar məktəbimizin də fəaliyyətində aydınlığı ilə hiss olunur. Zabit kadrların hazırlığı prosesi yeni hərbi-elmi biliklərin uğurlu tətbiqi ilə aparılır.

Məktəbimizdə hərbi vətənpərvərlik tədbirləri müntəzəm keçirilir ki, bunlar da kursantların mənəvi-psixoloji hazırlığında müstəsna əhəmiyyətə malikdir. Vətənpərvər kursant vətənpərvər zabit deməkdir. Vətənpərvər zabitin tabeçiliyində xidmət edən əsgər də, təbii ki, vətənpərvər olacaq. Aprel döyüşlərində şəhid olan məzunlarımızdan biri - polkovnik-leytenant Sənan Axundovun bu günlərdə anım tədbiri keçirildi. Ailə üzvləri də, dostları da dəvət olundular. Belə tədbirlər mütəmadi olaraq keçirilir. Silahlı Qüvvələrimizin 100 illik yubileyi ərəfəsindəyik. Silsilə tədbirlərimiz olacaq. Hər tədbir ayrılıqda da, vəhdətdə də ordu quruculuğunun inkişafına xidmət edəcək.

Kursantlarımız həm də yüksək fiziki hazırlığa malikdirlər.



Son illər bu istiqamətdə də maddi-texniki baza xeyli genişlənib, hərtərəfli imkanlara malik olan idman meydançaları, komplekslər yaradılıb.

Yeri gəlmişkən, bu il Bakıda hərbi yönümlü iki beynəlxalq tədbir keçirildi: "TurAz Qartalı-2017" və "Dəniz Kuboku-2017". Hər iki tədbirdə Azərbaycanı təmsil edən zabit heyəti məktəbimizin məzunları idi. Göründüyü kimi, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi respublikamızı beynəlxalq tədbirlərdə uğurla təmsil edir. Qürurlanırıq. İnanırıq ki, belə tədbirlərin miqyası genişlənəcək və məzunlarımız vaxtilə hərbi təhsil aldıqları məktəbin şöhrətini daha da artıracaqlar.

**- Cənab general, rəhbərlik etdiyiniz xüsusi təyinatlı təhsil müəssisəsi Sovetlər dönəmində də kifayət qədər nüfuza malik olub.**

- Elədir. Burada SSRİ-nin və dünyanın 40-dan çox dövlətinin vətəndaşı hərbi təhsil alıb. Bu fakt təsdiqləyir ki, məktəbdə zabit kadrları hazırlığını SSRİ rəhbərliyi də təqdir edib, bura kursant göndərən dövlətlər də. İstər o illərdə, istərsə də indi bu nüfuz kifayət qədər yüksək olub. Yeri gəlmişkən, zamanında bu məktəbdə Vyetnam Sosialist Respublikasının vətəndaşları da hərbi təhsil alıblar. Aradan illər keçsə də, məktəbimizin məzunu olanlar Azərbaycanı unutmurlar. Bu məzunlar zamanında Azərbaycanı seviblər, azərbaycanlıları seviblər, onlar Azərbaycanı tanıyıblar, Azərbaycanın tarixinə, mədəniyyətinə, mentalitetinə bələd olublar. Bu ünsiyyət illər keçsə də, yaşayıb, yaşadılıb. Məzunlarımızın əksəriyyəti Bakıya ailə üzvləri ilə gəlirlər, sevdikləri Azərbaycanı onlara da tanıdırlar.



Vyetnam Sosialist Respublikasının hərbi dəniz qüvvələri üzrə hərbi kadrlarının böyük əksəriyyəti bu məktəbin məzunudur. Bu gün onların əksəriyyəti kontr-admiral və admiral rütbəsindədir. Həmin ölkənin Hərbi Dəniz Qüvvələrinin Komandanı da bu hərbi məktəbi bitirib.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi bu günlərdə Vyetnam Sosialist Respublikası tərəfindən hərbi təhsil sistemində əməkdaşlığa görə təltif olunub. Biri Vyetnam Sosialist Respublikasının sədrinin, digəri Vyetnam Müdafiə nazirinin adındandır. Sevindiricidir, qürurvericidir.

**- Məzunlarınızla əlaqələriniz varmı?**

- Son 3-4 ildir ki, məktəbimizi bitirən ehtiyatda olan və ali rütbəli zabitlərlə mütəmadi görüşlər keçirilir. Belə görüşlər həm də xalqlar arasında qarşılıqlı etimadın dərinləşməsini təmin edir. Görüşlərdə məzunlarımız səmimiliklə bildirirlər ki, Azərbaycan bəşəri dövlətdir.

**- Azərbaycanla ikitərəfli hərbi əməkdaşlıq edən dövlətlərlə əlaqələriniz hansı səviyyədədir?**

Qarşılıqlı əlaqələr, əsasən Türkiyə Respublikası ilə daha genişdir. Məktəbimiz qardaş ölkənin hərbi məktəbləri ilə müntəzəm əlaqə saxlayır.

Dünyanın nüfuzlu dövlətlərinin hərbi təhsil sistemi ilə maraqlanırıq. Qabaqcıl təcrübədən bəhrələnmək, digər sahələrdə olduğu kimi, ordu quruculuğunda da öz səmərəsini verir. Lakin bəhrələnmə vizual xarakter daşıyır. Azərbaycanın özünəməxsus təhsil sistemi var və bu, özünü kifayət qədər doğruldur.

**- Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin BMT Baş Assambleyasının 72-ci sessiyasında çıxışı Silahlı Qüvvələrimizin şəxsi heyətinin qələbə əzmini daha da artırdı...**

- Ölkə başçımızın bu çıxışı birmənalı şəkildə torpaqlarımızın işğaldan azad ediləcəyinə inamdır. Bu inam hər bir hərbi qulluqçunun, deməli, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin zabitlərinin, kursantlarının da xidmət amalıdır. Biz də Ali Baş Komandanın, Müdafiə Nazirliyi rəhbərliyinin hər bir əmrini yerinə yetirməyə hazırıq.

**- Cənab general, müsahibəyə görə çox sağ olun.**

**Müsahibəni apardı:
leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**



*Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və İnsan hüquqları üzrə müvəkkilinin birgə planına əsasən, Ombudsman aparatının nümayəndələri cəbhəboyu zonada yerləşən hərbi hissələr və müdafiənin ön xəttindəki bölmələrdə olublar.*

# Ombudsman aparatının nümayəndələri ön xətdəki bölmələrdə olublar

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Ombudsman aparatının nümayəndələri Fəzail Həsənov və Murad Babayev hərbi qulluqçuların məişət şəraiti ilə tanış olub, hərbi hissələrdə insan hüquqlarının müdafiəsi vəziyyətini öyrənib və şəxsi heyəti maraqlandıran suallarl cavablandırıblar.

Aparatın əməkdaşları əsgər yataqxanaları, yeməkxanalar, tibb məntəqələri, məişət və digər inzibatı otaqlara baxış keçirərək qidalanmanın və müalicə işinin keyfiyyətini, asudə vaxtın keçirilməsi üçün yaradılan şərait, 



şəxsi heyətlə vətənpərvərlik və təlim-tərbiyə sahəsində aparılan işi müsbət qiymətləndiriblər.

Ordu və cəmiyyət

# Ədəbiyyat cəmiyyətin söz daşıyıcısıdı

*Rubrikamızın qonağı şair, publisist, elmi, publisistik, şeirlər kitablarının müəllifi, Bakı Dövlət Universitetinin kafedra müdiri Knyaz Aslandır.*



**- Söhbətlərimizdə müharibədən də danışırıq, ədəbiyyatdan da. Müharibənin ədəbiyyata, ədəbiyyatın müharibəyə təsirini kimsə inkar edə bilməz. Onların biri digərinə müəyyən dərəcədə təsir göstərir.**

- Müharibə cəmiyyətin bütün sahələrindən keçir. Ağrıları-acıları illər keçsə də unudulmur. İsa İsmayılzadənin bir beyti müharibədən yazılmış ən gözəl, düşündürücü nümunələrdəndir. Şair müharibə gedən ərazilərdən min kilometrlərlə uzaqda olan Qarayazının sıxıntılarını ədəbiyyata gətirə bilib. Şeirdə etiraf edilməli bir ümumiləşdirmə də var:

*Dava kəndimizdən uzaq olsa da,*
*Dava kəndimizin içindən keçib...*

"Böyüdülmüş şəkillər" haqqında da eyni fikirləri deyə bilərik.

Ədəbiyyat həmişə dövlətlə, dövlətçiliklə, xalqla, millətlə bağlı ideyalar carçısı, ideyalar cəfakeşi olub. Ədəbiyyat - ...böyük ədəbiyyat... təkcə söz sənəti deyil, həm də sözlə yaşatmağa, sözlə istiqamətləndirməyə, sözlə məfkurə yaratmağa, mövcud məfkurəni dərinləşdirməyə qadirdir. Müharibə ədəbiyyata mövzu verir, ədəbiyyat döyüşən ordunun ruhunun...

**- ...qələbə ovqatının...**

...əzminin, qətiyyətinin daşıyıcısı olur.

**- Bu baxımdan ədəbiyyat döyüşənlərin sırasında olmalıdır.**

- Əlbəttə.

İkinci Dünya müharibəsi başlanan gün Səməd Vurğunun "Bilsin ana torpaq..." şeiri cəmiyyətin müharibəyə münasibətini müəyyənləşdirdi. Təkcə müəyyənləşdirmədi, həm də hamını səfərbər etdi. Bu şeir əli silah tutanların düşüncəsinin söz təsdiqi idi. Böyük ədəbiyyat həmişə cəmiyyət üçün ağ işıq olub.

**- Bu işıq həm də yaşanılan, yaranan tarixi yaşatma vasitəsidi.**

Elədi. Hüseynbala Əliyevin şücaəti Məmməd Rahimin "Leninqrad göylərində" poemasında, Mehdi Hüseynzadənin əfsanəvi qəhrəmanlığı "Uzaq sahillərdə" romanında, Həzi Aslanovun hərbçi təfəkkürü Hüseyn Abaszadənin "General" romanında, ... tarixləşdi, o illəri yaşadan tarix oldu. Yəni, bədii əsərlər həm də tarixdi...

**- Tarix mühafizəkardı.**

- Bu mühafizəkarlıq öz təsdiqini həm də bədii əsərlərdə tapır.

**- Bəzən bədii əsərlərdə tarix təhrif olunur.**

- Nə qədər təhrif olunsa da, tarixin tarixiliyinə zərrəcə xələl gətirə bilməz. Ona görə də tarixi mövzularda yazılan bədii əsərlərə tarix kimi baxmaq düzgün deyil.

"İlliada"dan üzü bu yana müharibələr tarixi ədəbiyyatda da yaşadılır. Biz Qarabağ müharibəsini ədəbiyyatda necə yaşadacağıq? - düşünülməlidir. Kim düşünməlidir? - şairlər, yazıçılar.

**- Səməd Vurğunun "Geyib əsgər paltarını silahlandı qəhrəman" misrasını xatırlayıram. Zamanında Knyaz Aslan da əsgər paltarı geyinib...**

- Taleyimdən razıyam ki, mən də zamanında hərbi mundir geyinmişəm. "Xalq Ordusu" qəzetinə gəlişim də, ezamiyyətlərə getməyim də, döyüşənlərdən məqalələr yazmağım da indi tarixdi. Həm də unudulmayacaq tarixdi. Sənin "Zaman, biz və kişiliyimiz" kitabında bir məqam düşür yadıma. 20-ci illərdə Faxralıda olmuş hadisədi. Fərari ərini öldürən Tükəzin hekayətini deyirəm. 92-93-cü illərdə ordu sıralarına qatılmayanların, qatılmaq istəməyənlərin nə vaxtsa Tükəz nifrətinə tuş gələcəyini təxmin edənlərin hamısı əsgərləşməliydi. Ədəbiyyat müharibəyə belə xidmət edir.

Nə sənin, nə mənim, nə də tarixin yaddaşından çıxmayacaq bir məqamı xatırlayaq. "Xalq Ordusu" qəzetinin fəaliyyəti naməlum müddətə dayandırıldı. Qəzetin bir qrup əməkdaşı Goranboy rayonuna ezam edildi. Biz orada nə etdik? - qəzetin səyyar nömrələrini hazırladıq, Bərdə mətbəəsində A-3 formatda iki səhifədən ibarət olan bu qəzet o vaxtlar döyüşən ordunun ruh yüksəkliyinin cəfakeşi oldu. İnformasiyalar da verdik, reportajlar da, bu və ya digər döyüş haqqında müfəssəl məlumat da. Yusifin dediklərini heç birimiz heç zaman unutmayacağıq: "Biz sizin biriniz ola bilmərik, siz bizim birimizsiniz...". Bu səmimi dəyər bizim timsalımızda sözə verilmişdi, sözün timsalında "Xalq Ordusu"na - indi fəaliyyətini "Azərbaycan Ordusu" kimi davam etdirən ilk hərbi mətbuatımıza...

**- Söz dedin, ürəyim sözə kökləndi...**

- Müharibə taleyi yaşayan bir xalqın şairinin, yazıçısının, jurnalistinin ürəyi sözdən uzaq olmayıb. Xalqın arzuladığı gün üçün xidmət edənlərin ruhunun əsgəri olmayan şair, yazıçı, jurnalist, sənin təbirincə desək, say artırandı.

**- Say artıranlar ədəbiyyatın gücünü dərk edə bilməz....**

- Təbii ki, belədi. Ömür payını Vətən üçün, xalq üçün, dövlət üçün yaşamayanlar nə Aqil Abbasın "Dolu"sunu, nə Şərif Ağayarın "Gülüstan"ını, nə sənin "Müharibə"ni... dərk edə bilər, nə də digər belə əsərləri. Ədəbiyyat döyüşənlərin ruhunun silahıdı. Ruhun silahı xalqın tarixindən, mədəniyyətindən, ədəbiyyatından rişələnmirsə təsirsiz...

**- ...bəlkə də gücsüz...**

- Bəli, gücsüz olacaq. Aprel döyüşləri təsdiqlədi ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Ədəbiyyat bunu necə yaşadı, necə yaşatdı, necə yaşadır? - bir neçə ay məqalələr dərc edildi. Məqalə böyük ədəbiyyat deyil. Abdulla Qurbaninin "Lələtəpə", sənin "Lələtəpə", "Bayraqtəpə" və bir də bir neçə başqa kitablardan savayı əsər yaranmadı. Niyə? - ədəbiyyatın belə bir qələbəyə biganəliyini necə izah edəsən?

**- Bəlkə də nə vaxtsa yazılacaq.**

- Elə mövzular var ki, vaxtında yazılmalıdı. İstər tarixi əsər kimi, istərsə də bədii əsər kimi. Əsgər öz vəzifəsini yerinə yetirir - qələbə qazanır. Ədəbiyyat vəzifəsini lazımi, gərəkli səviyyədə yerinə yetirmir, yerinə yetirməli vəzifələrini təxirə salır. Bu, təkcə mənim qənaətim deyil. Tələbələrimizin əksəriyyəti bu fikirdədi. Onların sorğularına inandırıcı cavab verməyə çətinlik çəkirik. Ədəbiyyat tələbə-müəllim münasibətinə belə təsir göstərir. Arzulanmayan vəziyyətdi.

**- O tələbələr sabah əsgər olacaq.**

- Bəli. Sabahın əsgərləri bizi - şairləri, yazıçıları qınayır. Müharibə başa çatınca qınayacaqlar da. Bu qınağın tündləşdiyini sezmək çətin deyil. Milli mentalitetə görə üzə vurmasalar da belədi.

**- İstər tarixi, istərsə də bədii əsərlər müharibə getdiyi dövrdə yaranmalıdı. Beləmi demək istədiniz, ya mən belə anladım?**

- İkinci Dünya müharibəsi getdiyi illərdə də böyük əsərlər yazıldı, müharibədən sonra da. Mövzunun müharibəyə təsiri amilini unutmaq olmaz. Özünü düşmən tankının altına atan Etibar Hüseynovun, düşmənin mövqesinə tək gedən Mübariz İbrahimovun,... düşmənin təxribatlarının qarşısını alanda şücaət göstərənlərin, Çingiz Qurbanovun qəhrəmanlığı ədəbiyyat üçün mövzu oldu. Bunlar bədii əsərlərdə öz əksini dolğunluğu ilə tapa bilmədi. Unutmaq olmaz ki, müharibə ədəbiyyata mövzu verməklə yanaşı, onun fəaliyyət istiqamətini də müəyyənləşdirir. Təkcə nədən yazmağı deyil, necə yazmağı da xatırladır.

Ədəbiyyat öz vəzifələrini dolğunluğu ilə yerinə yetirməyəndə gərəkli, düşündürücü ssenarilər də yazılmır. Deməli, kinematoqrafiya da vəzifələrinin öhdəsindən gələ bilməyəcək. "Fəryad", "Ağ atlı oğlan", "Kəmər", "Dolu",... sonra? Bəs sonra? Yaranmır. Yaranmalıdı. Sənədli filmlərdə tarixilik, bu baxımdan reallıq öz əksini yetərincə tapmır. Çingiz Qurbanovun qəhrəmanlığı əbədiyyən unudulmayacaq. Abdulla Qurbaninin "Çingiz dastanı" əsəri yaşayacaq. Bəs onun haqqında çəkilmiş sənədli film necə?

**- Bu kəlmələr müəyyən mənada ittiham təsirindədi.**

Yox, ittiham çaları yoxdu, qınaq çaları var. Hamımızı qınayıram. Özümü də. Bu qınaq qazilərin qınağıdı, şəhidlərin ruhunun qınağıdı. Aprel zəfərini qazananların qınağıdı. Lələtəpədə dalğalanan üçrəngli bayrağımızın qınağıdı. Bu qınaqlardan yazacağımız əsərlərlə qurtara bilərik. Bəs tarix qınasa necə? Qurtara bilərikmi? Yox, qurtara bilmərik...

**- Bəs publisistika?**

- Publisistikamız ədəbiyyatımızla müqayisədə nisbətən çevikdi. Şəhidlərdən yazmaq şəhidlikdən yazmaq deyil. Həm də unutmayaq ki, müharibə şəraitində publisistikanın vəzifəsi cəmiyyətin ruhunu Böyük Qələbəyə, sabahlara kökləməkdi. Publisistikamız qələbənin söz daşıyıcısı olmalıdı. Nə xoş ki, bu, publisistikamızda var, duyulur.

**- Son illər Silahlı Qüvvələrimizdə irimiqyaslı islahatlar həyata keçirildi. Bu təkcə jurnalistikayamı mövzu olmalıydı?**

- Qətiyyən yox. Ədəbiyyat həm də dövlətlə, dövlətçiliklə bağlı olan hadisələrə, proseslərə də biganə qalmamalıdı. Zaman anlamında sabah hər qəhrəman haqqında əsərlər yazılacaq. Bəs qəhrəmanı qəhrəman kimi formalaşdıran şərait? Ordunun gücünü artıran, əsgərin mənəvi-psixoloji hazırlığını gücləndirən islahatların mahiyyəti öz əksini ədəbiyyatda da tapmalıdı.

Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin Təhlükəsizlik Şurasının Baş Assambleyasının 72-ci sessiyasındakı çıxışında səsləndirdiyi fikirlər təkcə Silahlı Qüvvələrin şəxsi heyəti üçün deyil, ümumən hər bir vətəndaş üçün əmrdir. Elə bizim üçün də.

**Söhbətləşdi:**
**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# "Polonez" sistemi "İsgəndər" raketləri ilə rəqabət apara biləcək silahdır

"İsgəndər" operativ-taktiki raket kompleksi (OTRK) Rusiya hərbi-sənaye kompleksinin (ISK) ən böyük nailiyyəti hesab edilir. Bəzi hərbi ekspertlərin fikrincə, hədəfin məhv edilməsinin dəqiqliyinə və dağıdıcı qüvvəsinə görə bu silahların analoqları, həmçinin onlarla rəqabət aparmağa qabil olan və onun hava hücumundan müdafiə (HHM) və ya raket hücumundan müdafiə (RHM) sistemlərinin raketlərini vura biləcək silah yoxdur.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sabiq korpus komandiri, hazırda istefada olan general-leytenant Yaşar Aydəmirov AZƏRTAC-ın sorğusuna cavab olaraq bildirib ki, ayrı-ayrı vaxtlarda "Temp-S", "OKA", "Luna-M", "Toçka-U" kimi başqa raket kompleksləri barəsində də buna oxşar fikirlər səslənib. Lakin müasir HHM və RHM sistemlərinin istehsalının inkişafı onunla nəticələnib ki, yuxarıda adları çəkilən raket komplekslərinin bəziləri öz aktuallığını itirib və ya ümumiyyətlə silah təchizatından çıxarılıb.

İstefada olan general-leytenant deyib: "İş elə gətirib ki, silah istehsalçılarının çoxu düşmənə psixoloji təsir göstərmək ümidi ilə öz məhsullarının taktiki-texniki göstəricilərini bir qədər şişirdirlər. Silahın praktiki tətbiqi zamanı bəzən o, gözlənilən nəticələri doğrultmur. "İsgəndər" komplekslərinin bu günə qədər heç bir müharibədə istifadə edilmədiyini, yəni real döyüş əməliyyatlarında tətbiq edilmədiyini nəzərə alsaq, onların imkanları barədə dəqiq fikirlər söyləmək, ən azı, qeyri-ciddi olardı".

Azərbaycan Silahlı Qüvvələrinin keçmiş korpus komandiri "İsgəndər" kompleksləri ilə rəqabət apara biləcək silahların olmaması fikri ilə əlaqədar qeyd edib ki, belə fikirlərin heç bir hərbi-elmi əsası yoxdur. Bu baxımdan, Belarusda istehsal edilən "Polonez" reaktiv yaylım atəşi sistemi (RYAS) öz texniki xarakteristikalarına görə "İsgəndər"lərdən praktiki olaraq geri qalmır. 2016-cı ilin yayında "Polonez" raket sistemlərinin dövlət sınaqlarında praktiki tətbiq edilməsi onun texniki xarakteristikasında təsvir edilən bütün imkanları uğurla nümayiş etdirdi. Ən başlıcası, onlar bütün hədəfləri dəqiqliklə məhv etdilər. Sınaqlardan etibarlı və səmərəli çıxmış bu sistem böyük sahələrdə və maksimum dəqiqliklə zərbə endirməyə qabildir. İstehsalçının bəyan etdiyi məlumatlara görə, "Polonez" 50-280 kilometr, gələcəkdə isə 300 kilometrdən artıq məsafədə düşmənin açıq və örtülü ərazidə yerləşən canlı qüvvəsini, zirehli və zirehsiz hərbi texnikasını, digər obyektlərini məhv etmək üçün nəzərdə tutulub. Bu raket sistemi eyni vaxtda 8 hədəfi vura bilir. Bu halda verilmiş koordinatlardan maksimum uzaqlıqda yayınma 30 metrdən çox olmur. "Polonez" sisteminin yaylım atəşi açmaq üçün raket sistemi olduğunu nəzərə alsaq bu göstəricini xəta hesab etmək olar.

"Polonez"in daha bir üstünlüyü ondan ibarətdir ki, o, çətin keçilən ərazilər üçün nəzərdə tutulmuş MZKT-7930 "Astroloq" adlı təkərli şassi üzərində quraşdırılır. Bu səbəbdən, "Polonez"in mürəkkəb relyefli dağlıq ərazilərdə tətbiq edilməsi heç bir çətinlik yaratmır. Son olaraq qeyd etmək lazımdır ki, ordumuzun "Polonez"lərlə silahlanması, Azərbaycan Silahlı Qüvvələrinin hərbi arsenalının və döyüş qabiliyyətinin qat-qat artması regionda hərbi tarazlıqda bizim üstünlüyümüzü daha da möhkəmlətməyə imkan verəcək. Hazırda dünyada mövcud olan ən güclü silah sistemləri nüvə döyüş başlıqlı qitələrarası ballistik raketlər hesab edilir. Azərbaycanın iqtisadi qüdrəti ölkəmizin bu raket komplekslərini də almasına imkan verir. Lakin buna ehtiyac varmı? Əlbəttə yox. Ona görə ki, bizim düşmənimiz bizdən minlərlə kilometr uzaqda deyil, elə bizim öz ərazimizdədir. Buna görə də bizə döyüş əməliyyatları aparılacaq ərazinin coğrafi məlumatlarına uyğun olan silah növləri lazımdır. Bu baxımdan, tam əminliklə demək olar ki, Azərbaycan Ordusunun sərəncamında olan silah və hərbi texnika növləri, o cümlədən çoxməqsədli raket sistemlərinin köməyi ilə nəinki işğal edilmiş ərazilərimizi azad etmək, hətta düşmən ərazisində onun dövlət əhəmiyyətli bütün strateji və hərbi obyektlərini qısa müddətdə məhv etmək olar.

# “Sənin əsgərinik, Vətən!”

*Gəncə Qarnizonu Zabitlər Evinin "Vətən Uğrunda!" Səyyar Təbliğat Dəstəsi cəbhəboyu zonada yerləşən hərbi hissələrdə, o cümlədən ön xətdə döyüş növbətçiliyi çəkən bölmələrdə şəxsi heyəti ziyarət edib.*



Tədbirin məqsədi hərbi qulluqçuların mənəvi-psixoloji ruhunu yüksəltmək üçün mədəni-kütləvi tədbirlərin keçirilməsi, hərb tariximizin öyrənilməsi, hərbi ənənələrin təbliği və şəxsi heyətə mənəvi dəstək olmaqdır.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi qulluqçularla keçirilən görüşlərdə döyüş hazırlığında nizam-intizamın, hərbi biliklərin, peşəkarlığın vacibliyi və mənəvi-psixoloji hazırlıq mövzularında söhbətlər aparılıb, təbliğat dəstəsinin avtoklub maşını vasitəsilə vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilib.

Daha sonra ön xətdə döyüş növbətçiliyi çəkən bölmələrdə əsgərlərlə hərb tarixi mövzusunda viktorina və idman yarışı təşkil olunub.

* * *



Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə bir qrup hərbi qulluqçunun Gəncə şəhərinin tarixi yerlərinə ekskursiyası təşkil edilib.

Əsgərlər Gəncə Qala Qapılarını, Gəncə İmamzadə Dini Memarlıq Abidə Kompleksini, dünya şöhrətli şairimiz Nizami Gəncəvinin məqbərəsini və mütəfəkkirin muzeyini, eləcə də Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun ev muzeyini ziyarət ediblər.

Hərbi qulluqçular muzeylərdə toplanmış eksponatlarla tanış olub, şəhərin qədim tarixi, xalqımızın zəngin mədəni irsi, incəsənət abidələri, yüksək mədəniyyəti, bölgənin adət-ənənələri barədə geniş məlumatlar əldə ediblər.

# “Rusiyanın Ermənistana silahlanma üçün kredit ayırması rəsmi Moskvanın beynəlxalq öhdəliklərinə ziddir”

Rusiyanın Ermənistana silahlanma üçün 100 milyon ABŞ dolları məbləğində uzunmüddətli kredit ayırması rəsmi Moskvanın beynəlxalq öhdəlikləri ilə ziddiyyət təşkil edir. ATƏT-in Minsk Qrupunun həmsədri olan Rusiyanın Ermənistanı faktiki əvəzsiz olaraq silah-sursat, hərbi texnika ilə təmin etməsi bu ölkənin vasitəlik missiyasına uyğun gəlmir. Bu addım işğalçı ölkənin mövqelərinin gücləndirilməsinə xidmət edir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi şərhçi Elçin Mirzəbəyli deyib.

Elçin Mirzəbəyli bildirib ki, Rusiya təkcə ATƏT-in Minsk Qrupunun həmsədri kimi deyil, eyni zamanda, BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi dünyada və regionda təhlükəsizliyin qorunmasına görə məsuliyyət daşıyır. “Ermənistanın silahlandırılması isə regiondakı təhlükəsizlik mexanizmlərinə ciddi zərbə vurur, gərginliyin daha da artmasına zəmin yaradır. Ermənistanın silahlandırılması, eyni zamanda, Avropada adi silahlar haqqında Müqavilənin də kobud şəkildə pozulması deməkdir. Doğrudur, Rusiya bu Müqavilədə iştirakını dayandırıb, lakin ikinci dövlətlərə münasibətdə öz öhdəliklərindən imtina etməyib.

Ermənistana uzunmüddətli kreditin şərtləri onu deməyə əsas verir ki, bu silahlar, əslində, əvəzsiz olaraq verilib, "uzunmüddətli kredit" isə prosesin pərdələnməsinə xidmət edir. Çünki Ermənistanın xarici borcu 7 milyard dollara yaxınlaşıb. Bu ilin 9 ayı ərzində işğalçı ölkənin borcu 1 milyard dollardan çox artıb. Ermənistanın mövcud durumu sübuta yetirir ki, rəsmi İrəvanın ona ayrılan krediti geri qaytarmaq imkanı yoxdur. Rusiyada da bunu yaxşı bilirlər. Bu prosesin Azərbaycan və Ermənistan prezidentlərinin görüşü ərəfəsində həyata keçirilməsi təəssüf doğurur. Çünki bu, ilk növbədə, Rusiyanın vasitəçilik missiyasını şübhə altına alır", - deyə Elçin Mirzəbəyli qeyd edib.

# Zirehli avtomobil



Volat V1 zirehli avtomobili Belarus Respublikasının təkərli dartıcılar zavodunda "Silahlanma sisteminin hərəkətlilik vasitələri" layihəsi çərçivəsində hazırlanıb. Maşının əsasını güclü lonjeron (avtomobil çərçivəsində uzununa yerləşən tir) çərçivə təşkil edir. Avtomobilin gövdəsi yüngül zirehlə təchiz edilib. Nəqliyyatın heyəti on nəfər üçün hesablanıb. İki nəfər ön hissədə və səkkiz nəfər isə maşının gövdə hissəsində yerləşdirilə bilər.

Volat V1 zirehli avtomobili şose yolda süräti saatda 120 kilometrə qədər artırmağa qadirdir. Sürücü bort informasiya-idarəetmə sistemindən istifadə edir. Bu sistem sürücüyə yolların texniki vəziyyəti haqqında informasiyanı ötürür.

Onun baza dəsti özünə bir çox funksiya və cihazlanmanı daxil edir. Bunlara mühərrikin qızdırıcı cihazı, filtrli ventilyasiya sistemi, tüstülənmənin qarşısını alan mexanizm, enerjini udma funksiyasını yerinə yetirən oturacaq, şində təzyiqə nəzarət edən distansion sistem və s. aiddir. İstehsalçılar burada atıcı silahların quraşdırılması üçün xüsusi modulun olmasını, minalardan qorunmaq üçün mühafizə sisteminin, radiostansiyanın, elektrik naqilli bucurğadın (ağırlıq qaldırma mexanizmi) quraşdırılmasını təklif edirlər. Həmçinin döyüş maşınında müxtəlif təyinatlı cihazlandırma sistemi də quraşdırmaq mümkündür.

Zirehli avtomobilin uzunluğu 6,4 metr, eni 2,55 metr, hündürlüyü isə 2,66 metrdir. Hər biri 130 litr yanacaq tutumu olan iki çənlə təchiz edilib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Havaların soyuması da Ermənistan ordusunda özünəqəsd hallarının artmasına səbəb olub

*Ermənistan silahlı qüvvələrində hökm sürən acınacaqlı vəziyyət havaların soyuması ilə əsgərlər üçün daha da dözülməz həddə çatıb. İstilikdən məhrum olan, soyuq hava şəraitində xidmətin çətinliklərinə dözə bilməyən işğalçı ordunun əsgərləri özünəqəsd etməyə üstünlük verirlər.*

Bir neçə gün əvvəl yeddinci dağatıcı alayının hərbi qulluqçusu Aron Harutunyan xidməti vəzifəsini yerinə yetirməkdən imtina etdiyinə görə barəsində cinayət işi açılıb.

Beşinci dağatıcı alayında müqavilə əsasında xidmət edən Qurgen Qalustyan isə hərbi hissəni özbaşına tərk etdiyi üçün barəsində axtarış elan edilib. Hərbi polisin təzyiqlərinə məruz qalan hərbçinin valideynləri övladlarının taleyindən xəbərsiz olduqlarını bildiriblər.

Altıncı dağatıcı alayın hərbi qulluqçusu isə postda və blindajdakı soyuq şəraitdən bezərək xidmətdən yayınmaq üçün özünə qəsd edib. Yarası ağır olmadığına görə alayın tibb məntəqəsində saxlanılır. Məsələni böyütməmək üçün susmağa razılaşan əsgər barəsində cinayət işi açılmayıb.

Hərbi hissələrdə mövcud olan özbaşınalıq, yerlibazlıq, "dedovşina" ilə bərabər artıq işğalçı ordunun şəxsi heyəti soyuqla da təkbaşına mübarizə aparmaq məcburiyyətində qalıb. Soyuqların düşməsi ilə onsuz da pis olan vəziyyət daha da ağırlaşıb.

Övladları ilə əlaqə yaratmağa nail olan ermənistanlı analar bildiriblər ki, soyuqların düşməsi və yağışların yağması ilə səngərlər su ilə dolub. Dağlıq ərazilərdə və hündürlüklərdə yerləşən postlar daha da bərbad vəziyyətdədir. Texnika nasaz vəziyyətdə olduğundan təminat gecikdirilir, gecə qaranlıqda növbə çəkənlərin gözlərinə daim düşmən, basqın görünür, qorxudan tez-tez həyəcan siqnalı verirlər. Valideynlər hiddətlə bildirirlər ki, əsgərlər əl altında olan vasitələrdən sadə üsulla soba qurmağa çalışsalar da yanacaq çatışmır.

Əsgərlərdən biri valideynlərinə yazıb ki, iş o həddə çatıb ki, Ağdərədə əsgər yoldaşları tərəfindən döyülərək hospitala yerləşdirilən Arsen Aloyanın tibb müəssisəsində isti yerdə yatmasına digər hərbçilər həsədlə baxırlar.

**İsa ELDAROĞLU**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 405
Nüsxə 4600